AZƏR-ÇEX Cəmiyyəti
Çexiya Respublikası-Praqa
CZ-181 00 Hlivická 417/22

AZER-ČECH
SDRUŽENÍ AZERBAJDŽANCŮ V ČR

Sdružení AZER-ČECH
Praha-Česká republika
CZ-181 00 Hlivická 417/22

www.diaspora.cz

---

Azərbaycan Respublikasının Prezidenti

Zati-Aliləri İLHAM Heydər oğlu Əliyev

Cəmiyyətimizin və Çexiyadakı həmvətənlətimizin adından şəxsən Sizi və Xalqımızı Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni 2005-ci il münasibətilə təbrik edir, can sağlığı və uğurlar diləyirik. Ölkəmizin hərtərəfli inkişafı, xoşbəxt gələcəyi və Milli barışıq üçün atdığınız bütün addımlar biz xaricdə yaşayan həmvətənləri sevindirir, bu şərəfli işdə Sizə möhkəm iradə və bol nailiyyətlər arzulayırıq!

Azərbaycanımızın Avropada müsbət tanınması və yurdumuza lazımi köməkliyi göstərmək üçün diasporamız səylərini əsirgəmir. Öhdəmizə düşən bu şərəfli işdə Vətənə əməli yardım üçün nail olduğumuz kiçik uğurlar da var. Belə ki, AZƏR-ÇEX Cəmiyyəti və „Sri Chinmoy Center“ Humanitar Mərkəzinin Praqa ofisi arasında razılıq əldə olunmuşdur. Bunun sayəsində Azərbaycandakı tibbi müəssisələrə, xəstəxanalara, məcburi köçkünlərə, əlillərə və kimsəsiz uşaq evlərinə lazım ola biləcək avadanlıq və materiallarla yardım etmək imkanı yaranmışdır. Bu proyekt uzunmüddətli və geniş miqyaslı ola bilər. Azərbaycan tərəfdən kordinator rolunda Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsini görürük. İnanırıq ki, cənab Sədr Nazim İbrahimovun başçılıq etdiyi və professional əməkdaşlardan ibarət bu təşkilat həmişəki kimi vəzifəsinin öhdəsindən layiqincə gələcəkdir.

Başlanğıc üçün konkret olaraq, Azərbaycandakı kimsəsiz uşaq evlərinə oyuncaqlar və Multivitamin preparatları göndərməyi qərarlaşdırdıq. Bu kiçik Yeni il töhfəsi 360 nəfər kimsəsiz uşağın 1 aylıq vitamin təminatını tam ödəmək üçün nəzərdə tutulub.

Çexiya Respublikası Avropa Birliyi ailəsinin önəmli üzvlərindəndir və onun Azərbaycanla yaxın münasibətlərinin qurulması hər iki tərəf üçün səmərəli ola bilər. Qarabağ probleminin həlli yolundakı sülh danışıqları və şəxsən Sizin də önəm verdiyiniz „Praqa prosesi“ Avropanın mərkəzində - Çexiyanın paytaxtında baş verir. Məhz Azərbaycan Respublikasının Diplomatik Nümayəndəliyinin - Səfirliyin Praqada açılması ölkələr və xalqlar arasındakı yaxınlığa, dövlətlər arasındakı siyasi-iqtisadi əlaqələrin artmasına təkan ola bilər.

Möhtərəm Prezident,

bir daha Sizi və ailənizi təbrik edir, Yeni ildə can sağlığı, Azərbaycan uğrunda daha çox uğurlar və nailiyyətlər arzulayırıq! Allah Azərbaycanımızı və Sizi Qorusun!

Xoş arzularla

Dr. Elşən S. Nəzərov
AZƏR-ÇEX Cəmiyyətinin Sədri

30.12.2004 – Praqa, Çexiya Respublikası